TARİXİMİZ

# Əbədiyyətə qovuşan ömür: Masallı şəhidləri

## Şəhid leytenant Zaur Hüseynov

**Zaur Vaqif oğlu Hüseynov 24 iyun 1995-ci ildə Masallı rayonunun Hişkədərə kəndində anadan olub. Kənd tam orta məktəbinin 9-cu sinfini, C.Naxçıvanski adına hərbi liseyi bitirib. İki il əvvəl Hərbi Akademiyanı da başa vuraraq "N" saylı hərbi hissədə xidmətə başlamışdı.**



Sentyabrın 27-də səhər saatlarında erməni yaraqlıları Füzuli, Cəbrayıl, Tərtər, Ağdərə istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə, kəndlərimizə iriçaplı silahlardan, ağır artilleriyadan istifadə edərək, genişmiqyaslı təxribatlara yol açdılar. Azərbaycan silahlı qüvvələri təxribatın qarşısını almaq üçün əks-hücumla düşmənə ağır zərbələr endirdi. Həmin döyüşlərdə igid zabitimiz idarə etdiyi BMP-si ilə düşmənin bir neçə müdafiə istehkamını məhv etmişdir.

Füzuli istiqamətində gedən şiddətli döyüşlərin birində Masallı rayonunun Hişkədərə kəndində doğulub boya-başa çatan, Azərbaycan Ordusunun leytenantı olan Zaur Hüseynov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan müharibənin elə ilk günündə qəhrəmancasına şəhid olmuşdur. Sentyabrın 28-də şəhid Zaur Hüseynovun nəşi doğma kəndində torpağa tapşırıldı.

**Ailəli idi. Bir qız uşağı yadigar qaldı.**

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Masallı rayonunun Hişkədərə kəndindən olan Vətən Müharibəsinin şəhidi, leytenant Hüseynov Zaur Vaqif oğlu ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Allah rəhmət eləsin!**

## Şəhid baş çavuş Nayib Qasımov

**Nayib Qasımov 1997-ci il iyunun 12-də Masallı rayonunun Mahmudavar kəndində anadan olub. 2014-cü ildə Mahmudavar kənd tam orta məktəbini bitirib. 2015-ci ilin iyul ayının 13-də həqiqi hərbi xidmətə yollanıb.**



2015-2017-ci illərdə Xüsusi Təyinatlı Qüvvələrdə müddətli əsgər kimi xidmət göstərir. 2016-cı ildə müddətli əsgər kimi "Aprel" döyüşlərində iştirak edir. 2017-ci ildə müddətli hərbi xidməti başa vuraraq könüllü ordu sıralarında qalır. 3 aylıq kurs keçir və Xüsusi Təyinatlı Qüvvələrin tərkibində müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi xidmət etməyə başlayır. Xidməti boyunca bir neçə dəfə nümunəvi xidmətinə görə fəxri fərmanlarla təltif olunur.

2018-ci ildə döyüş hazırlığında uğurlar qazandığı, Azərbaycan Ordusunun qurulmasında və möhkəmləndirilməsində fəal iştirak etdiyinə görə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunur. 2020-ci ilin 12 iyul tarixindən etibarən Ermənistan-Azərbaycan dövlət sərhədinin Tavuş mərzi və Tovuz rayonu əraziləri boyunca başlayan, "Tovuz" döyüşləri kimi tanınan döyüşlərdə iştirak etmişdir. Baş çavuş Qasımovun son döyüşləri məhz 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsində olur.

**Nayib Qasımov Cəbrayıl uğrunda döyüşlərdə, 6 oktyabr tarixində şəhid olur. Doğulub boya-başa çatdığı Masallı rayonu Mahmudavar kəndində dəfn olunub.**

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Nayib Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

## Cəsur kəşfiyyatçı Amid Salayev

**Amid Yadulla oğlu Salayev 10 fevral 2002-ci ildə Masallı rayonunun Sığdaş kəndində anadan olub. 2019-cu ildə Sığdaş kənd tam orta məktəbini müvəffəqiyyətlə bitirərək 2020-cu ilin aprel ayında Masallı Rayon Hərbi Komissarlığı tərəfindən həqiqi hərbi xidmətə çağırılıb.**



Hərbi xidmətə Ağcəbədi rayonunda, "N" saylı hərbi hissədə başlayıb. Amid fiziki hazırlığına, idman göstəricilərinə, istedadına, biliyinə və bacarıqlarına görə hərbi hissənin kəşfiyyat bölüyündə xidmətini davam etdirirdi...

Düşmən sentyabrın 27-dən başlayan əks-hücumun qarşısında tab gətirə bilmədi. Füzulinin, Cəbrayılın dağlıq ərazilərindəki yüksəkliklərdə müqavimət göstərməyə cəhd edirdilər. Ancaq başa düşmürdülər ki, torpaq, Vətən uğrunda döyüşən, ölümün gözlərinə gülə-gülə baxan, vətənpərvər bir ordunun qarşısını almaq çətindir.

**Amid də kəşfiyyatçı kimi Vətən torpaqlarının azad olunması uğrunda gedən döyüşlərdə iştirak edirdi. O, bir çox döyüş əməliyyatlarında qəhrəmanlıqla iştirak edir və böyük şücaət göstərirdi. Amid Vətən qarşısında əsgəri borcunu vicdanla, şərəflə yerinə yetirərək Fizuli rayonunun azad olunması uğrunda gedən döyüşlərdə son damla qanına qədər döyüşərək qəhrəmancasına şəhid oldu.**

05 oktyabr 2020-ci il tarixdə Sığdaş kənd qəbirstanlığında dəfn edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən cəsur kəşfiyyatçı Amid Yadulla oğlu Salayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

**Allah rəhmət eləsin!**

## Şəhid əsgər Şəmsəddin Təhməzov

**Şəmsəddin Sərvər oğlu Təhməzov 3 mart 2001-ci il tarixdə Masallı rayonunun Güllütəpə kəndində anadan olub. 2007-ci ildə Yeni Zuvand kənd tam orta məktəbinin birinci sinifinə daxil olub. İbtidai təhsilini bu məktəbdə alıb. Sonralar ailə vəziyyəti ilə əlaqədar Beyləqan rayonuna köçdükləri üçün təhsilini Beyləqan şəhər 1№-li tam orta məktəbində davam etdirib.**

2016-cı ildə IX sinifi bitirdikdən sonra təhsilini yarımçıq qoyaraq əmək fəaliyyətinə başlayır. İşləyə-işləyə valideynlərinə maddi dəstək olur.

2019-cu ilin aprel ayında SHXÇDX-nin Masallı rayon şöbəsindən həqiqi hərbi xidmətə çağırılıb. Hərbi xidmətini Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə yerinə yetirməyə başlayır.

Sentyabrın 27-də səhər saatlarında Ermənistan yaraqlıları Azərbaycanın Füzuli, Cəbrayıl, Tərtər, Ağdərə istiqamətlərində Azərbaycan ordusunun mövqelərinə, kəndlərimizə iriçaplı silahlardan, ağır artilleriyadan istifadə edərək, genişmiqyaslı təxribatlara yol açırlar. Azərbaycan silahlı qüvvələri təxribatın qarşısını almaq üçün əks-hücumla düşmənə ağır zərbələr endirir.

**İgid əsgərimiz Şəmsəddin Təhməzov Ana Vətən müharibəsi uğrunda başlanan döyüşlərdə yüksək qəhrəmanlıq nümunəsi göstərir. Tərtər rayonu istiqamətində gedən döyüşlərdə düşmənlərə qarşı mərdliklə vuruşur. Cəsur əsgər oktyabr ayının 7-də qəhrəmancasına şəhidlik zirvəsinə ucalır.**



Şəmsəddin Təhməzov 8 oktyabr 2020-ci ildə doğulub boya-başa çatdığı Masallı rayonunun Güllütəpə kənd qəbirstanlığında torpağa tapşırılıb. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş qapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Masallı rayonunun Güllütəpə kəndindən olan Vətən müharibəsinin şəhidi əsgər Şəmsəddin Sərvər oğlu Təhməzov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

Ondan həyatda heç bir nişanə qalmadı. Subay idi. Amma, Şəmsəddinin qəhrəmanlıq nümunəsi onu ürəklərdə daim yaşadacaq.

İnsan var həyatda 80-90 il ömür sürür, tez də unudulur. Şəmsəddin kimi oğullar insanların ürəyində əbədi olaraq yaşayacaqdır...

**Allah rəhmət eləsin!**

**Əlihüseyn ŞÜKÜROV**